Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:

dos. Zaur Məmmədov
"26" "XII" 2025-ci il

Fənn sillabusu

İxtisas: 6004008 - "Mühasibat"
Fakültə: İqtisadiyyat və idarəetmə
Kafedra: Maliyyə idarəetməsi və audit

**I.Fənn haqqında məlumat:**

Fənnin adı: Maliyyə uçotu (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19 may 2017- ci il 242 saylı əmri ilə)
Kodu: İPF-B10
Tədris ili: I (2025/2026) Semestr: II
Tədris yükü: Cəmi: 20 saat (10 saat mühazirə,10 saat seminar)
Tədris forması: Qiyabi
Tədris dili: Azərbaycan dili
AKTS üzrə kredit: 6 kredit
Auditoriya №: Saat:

**II. Müəllim haqqında məlumat:**

Adı, soyadı, elmi dərəcəsi və elmi adı: Tağızadə Səriyyə Cəfər qızı, baş müəllim
Məsləhət günləri və saatı: I-V günlər
E-mail ünvanı: sariyyatagizade@gmail.com
Kafedranın ünvanı: Lənkəran ş., Füzuli küç.,170-a

**III.Tövsiyyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat**

1. Ə. Sadıqov Ə. və müəl. kollektivi Mühasibat (maliyyə) uçotu. Dərslik. Bakı, 2013
2. Bədəlov Ə.M. Maliyyə və vergi uçotu. Dərs vəsaiti. Bakı, 2025, "Adiloğlu nəşriyyatı", 372 səh.
3. Терехова В.А. Maliyyə uçotu. Qısa kurs. Rus dilindən tərcümə. Bakı: "İqtisad universiteti"nəşriyyatı, 2008

**Əlavə ədəbiyyat**

4. Финансовый и управленческий учет и анализ : учебник / П. И. Камышанов, А. П. Камышанов. – Москва : ИНФРА-М,. 2024. –. 592 с
5. Финансовый учет : учебник / под ред. проф. В.Г. Гетьмана. — 6-е изд., перераб. и доп. — Москва : ИНФРА-М, 2023. — 622 с.

**IV.Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**V.Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**IV. Fənnin təsviri və məqsədi:** Maliyyə (mühasibat) uçotu sisteminin geniş təkrar istehsalda və əhalinin sosial mənafeyinin təmin edilməsində rolu getdikcə artmaqdadır. Qloballaşan dünya iqtisadiyyatında iqtisadi əlaqələr inkişaf edir, beynəlxalq iqtisadi inteqrasiya getdikcə daha da mürəkkəb xarakter alır. Bütün bunlar beynəlxalq uçot və hesablaşma formalarının tətbiqini, maliyyə uçotunun əlaqələrinin təkmilləşdirilməsini tələb edir. Azərbaycan milli iqtisadiyyatının bazar prinsipləri əsasında formalaşması,dünya ölkələri arasında yaranan iqtisadi əlaqələr maliyyə (mühasibat) uçotunu vacib beynəlxalq münasibətlər vasitəsinə çevrilmişdir. "Maliyyə (mühasibat) uçotu" fənni bakalavr pilləsində iqtisadçı kadrların hazırlanması prosesində tədris olunan əsas fənnlərdən biridir. Fənnin əsas məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir:

-maliyyə (mühasibat) uçotu fənninin nəzəri və praktiki məsələlərini öyrətmək;
-maliyyə uçotu siyasətinin, maliyyə (mühasibat) uçotu sisteminin təşkili və strukturunun, maliyyə uçotunun idarə edilməsinin öyrənilməsi;
-maliyyə (mühasibat) uçotunun yeni uçot standartlarına uyğun ölkəmizdə formalaşması problemlərini açıqlamaq;
-müxtəlif fəaliyyət sahəsində maliyyə (mühasibat) uçotunun təşkili prinsiplərinin formalaşması və müəssisələrdə istifadəsinin əsaslarının şərh edilməsi.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar, məşğələ və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;

CamScanner ile tarandı

- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1 | 91 - 100 | Əla | A |
| 2 | 81-90 | Çox yaxşı | B |
| 3 | 71-80 | Yaxşı | C |
| 4 | 61-70 | Kafi | D |
| 5 | 51-60 | Qənaətbəxş | E |
| 6 | 50 və ondan aşağı | Qeyri - kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam – intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı:** Cəmi: 20 saat (Mühazirə - 10 saat, seminar-10 saat).

| № | Keçirilən mühazirə, seminar, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Müh | | Sem | |
|---|---|---|---|---|---|
| | | Saat | Tarix | Saat | Tarix |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | Mühazirə | | | | |
| 1 | Mövzu: Maliyyə uçotunun mahiyyəti, predmeti, metodu və tənzimlənməsi<br>Plan:<br>1. Maliyyə uçotunun mahiyyəti və predmeti<br>2. Maliyyə uçotunun metodu<br>3. Maliyyə uçotunun obyektləri və funksiyaları<br>4. Maliyyə uçotunun vəzifələri və qoyulan tələblər<br>5. Maliyyə və idarəetmə uçotu,onların müqayisəli xarakteristikası<br>6. Maliyyə uçotu qaydalarının tənzimlənməsi<br>7. Maliyyə uçotu informasiyalarından istifadə edənlər<br>8. Maliyyə uçotunun təşkili qaydalarının əsas prinsipləri<br>9. Maliyyə uçotunun tətbiqində müəssisənin uçot siyasəti<br>Mənbə: [Mühazirə materialları, 1-5] | 2 | | 2 | |
| 2 | Mövzu: Torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin uçotu<br>Plan:<br>1. Torpaq, tikili və avadanlıqların iqtisadi mahiyyəti və vəzifələri<br>2. Torpaq, tikili və avadanlıqların təsnifatı<br>3. Torpaq,tikili və avadanlıqların qiymətləndirilməsi<br>4. Torpaq, tikili və avadanlıqların müəssisəyə daxil olmasının uçotu<br>5. Torpaq, tikili və avadanlıqların köhnəlməsinin uçotu<br>6. Torpaq, tikili və avadanlıqların təmirinin uçotu<br>7. Qeyri-maddi aktivlərin iqtisadi mahiyyəti və uçot obyektləri<br>8. Qeyri-maddi aktivlərin sintetik və analitik uçotu<br>9. Qeyri-maddi aktivlərin köhnəlməsinin uçotu<br>Mənbə: [Mühazirə materialları, 1-5] | 2 | | 2 | |
| 3 | Mövzu: Maliyyə uçotunda material ehtiyatlarının uçotu və istehsal xərcləri<br>Plan:<br>1. Material ehtiyatlarının uçotunun təşkili, vəzifələri və təsnifatı<br>2. Materialların daxil olmasının sintetik və analitik uçotu<br>3. Materialların anbarda və mühasibatlıqda hərəkətinin uçotu<br>4. İstehsalat məsrəflərinin uçotunun təşkili və vəzifələri<br>5. İstehsalat məsrəflərinin təsnifatı<br>6 Məsrəflərin elementlər və kalkulyasiya maddələri üzrə qruplaşdırılması<br>Mənbə: [Mühazirə materialları, 1-5] | 2 | | 2 | |
| 4 | Mövzu: Pul vəsaitləri, hesablaşmaların və əməyin uçotu<br>Plan:<br>1. Pul vəsaitlərinin və hesablaşma əməliyyatlarının mahiyyəti<br>2. Kassa əməliyyatlarının sənədləşdirilməsi və uçotu<br>3. Bank hesablaşma hesabları üzrə əməliyyatların uçotu<br>4. Xarici valyuta əməliyyatlarının uçotu<br>5. Pul vəsaitləri və hesablaşma əməliyyatlarının inventarlaşdırılması<br>6. Əməyin uçotunun təşkili prinsipləri və formaları<br>7. Şəxsi heyətin əməyindən istifadənin uçotunun sənədləşdirilməsi<br>8. Əmək haqqının sintetik və analitik uçotu<br>Mənbə: [Mühazirə materialları, 1-5] | 2 | | 2 | |

CamScanner ile tarandı

| | | | | | |
|---|---|---|---|---|---|
| 5 | Mövzu: Kapitalın və maliyyə nəticələrinin uçotu<br>Plan:<br>1. Nizamnamə kapitalının yaranması və dəyişilməsinin uçotu<br>2. Əlavə kapitalın yaranması və uçotu<br>3. Ehtiyat kapitalının uçotu<br>4. Müəssisədə maliyyə nəticələrinin quruluşu<br>5. Mənfəət və zərərlərin uçotu<br>6. Mənfəətin bölüşdürülməsinin uçotu<br>7. Maliyyə hesabatı qarşısında qoyulan tələblər<br>8. Maliyyə hesabatının tərtib olunması və təqdim edilməsi qaydası<br>Mənbə: [Mühazirə materialları, 1-5] | 2 | | 2 | |
| X | Cəmi: | 10 | | 10 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:** Maliyyə uçotu sahəsində yaradıcı, təşəbbüskar kadrların hazırlanmasında maliyyənin uçotunun öyrənilməsinin mühüm rolu vardır. Maliyyə uçotunun iqtisadi mahiyyətinin öyrənilməsi, onun ictimai proseslərdə yerinin və rolunun araşdırılması uçotun dəqiq sərhədlərini müəyyənləşdirməyə, müəssisənin mövcud maliyyə vəziyyətini peşəkarcasına qiymətləndirməyə, onun inkişafının nəticələrini əvvəlcədən görməyə imkan verir. Eyni zamanda cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sferalarında maliyyə uçotu münasibətlərinin təşkili prinsipləri göstərilir, istifadə imkanları işıqlanır. Bunun nəticəsində isə maliyyə uçotundan istifadənin daha səmərəli forma və metodlarını müəyyən etməyə, maliyyə uçotunun iqtisadiyyata və sosial sahəyə təsirinin gücləndirilməsinin mümkün yollarını göstərməyə imkan yaranır. Bu istiqamətdə xüsusilə aşagıdakılar tələb olunur:

- Maliyyə uçotunun təkmilləşdirilməsinin aktual istiqamət və problemlərini öyrənmək;
- Maliyyə uçotunun iqtisad elmləri, o cümlədən büdcə, sığorta və vergi elmlərin nəzəriyyəsini və metodologiyasının və praktiki öyrənilməsində yeri, rolu və mövqeyini öyrənmək;
- Maliyyə uçotu fənninin digər iqtisad elmləri ilə qarşılıqlı əlaqəsini öyrənmək.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- Maliyyə uçotunun mahiyyətini, məqsədi və vəzifələrini, maliyyə uçotu informasiyalarından istifadə edənləri öyrənir;
- Torpaq, tikili və avadanlıqların daxil olmasının, köhnəlməsinin uçotunun aparılmasını, torpaq, tikili və avadanlıqların qiymətləndirilməsi qaydalarını öyrənir;
- Kənd təsərrüfatında maliyyə uçotunun vəzifələrini və bioloji aktivlərin sintetik və analitik uçotunu mənimsəyir;
- Materialların anbarda və mühasibatlıqda hərəkətinin uçotunu, materialların inventarlaşdırılması və maddi qiymətlilərin yenidən qiymətləndirilməsini öyrənir;
- Əməyin uçotunun təşkili prinsiplərini, onun ödənişinin sistem və formalarını, şəxsi heyətin əməyindən istifadənin uçotunun sənədləşdirilməsini mənimsəyir;
- Pul vəsaitləri və hesablaşmaların uçotunu, vergiyə cəlb olunan əməliyyatların uçotunu öyrənir, maliyyə nəticələrinin uçotu və maliyyə hesabatının aparılmasını mənimsəyir.

**XIII.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV. Kollekvium sualları**

**--blok--**

1. Maliyyə uçotunun mahiyyəti və predmeti
2. Maliyyə uçotunun metodu
3. Maliyyə uçotu informasiyalarından istifadə edənlər

**--blok--**

4. Torpaq, tikili və avadanlıqların iqtisadi mahiyyəti və vəzifələri
5. Torpaq, tikili və avadanlıqların təsnifatı
6. Materialların anbarda və mühasibatlıqda hərəkətinin uçotu
7. İstehsalat məsrəflərinin təsnifatı

**--blok--**

8. Pul vəsaitlərinin və hesablaşma əməliyyatlarının mahiyyəti
9. Əməyin uçotunun təşkili prinsipləri və formaları
10. Maliyyə hesabatının tərtib olunması və təqdim edilməsi qaydası

**XV. İmtahan sualları**

**--blok--**

1. Maliyyə uçotunun mahiyyəti və predmeti
2. Maliyyə uçotunun metodu
3. Maliyyə uçotunun obyektləri və funksiyaları
4. Maliyyə uçotunun vəzifələri və qoyulan tələblər
5. Maliyyə və idarəetmə uçotu,onların müqayisəli xarakteristikası
6. Maliyyə uçotu qaydalarının tənzimlənməsi
7. Maliyyə uçotu informasiyalarından istifadə edənlər
8. Maliyyə uçotunun təşkili qaydalarının əsas prinsipləri
9. Maliyyə uçotunun tətbiqində müəssisənin uçot siyasəti

**--blok--**

10. Torpaq, tikili və avadanlıqların iqtisadi mahiyyəti və vəzifələri

CamScanner ile tarandı

11. Torpaq, tikili və avadanlıqların təsnifatı
12. Torpaq,tikili və avadanlıqların qiymətləndirilməsi
13. Torpaq, tikili və avadanlıqların müəssisəyə daxil olmasının uçotu
14. Torpaq, tikili və avadanlıqların köhnəlməsinin uçotu
15. Torpaq, tikili və avadanlıqların təmirinin uçotu
16. Qeyri-maddi aktivlərin iqtisadi mahiyyəti və uçot obyektləri
17. Qeyri-maddi aktivlərin sintetik və analitik uçotu
18. Qeyri-maddi aktivlərin köhnəlməsinin uçotu

**--blok--**

19. Material ehtiyatlarının uçotunun təşkili, vəzifələri və təsnifatı
20. Materialların daxil olmasının sintetik və analitik uçotu
21. Materialların anbarda və mühasibatlıqda hərəkətinin uçotu
22. İstehsalat məsrəflərinin uçotunun təşkili və vəzifələri
23. İstehsalat məsrəflərinin təsnifatı
24. Məsrəflərin elementlər və kalkulyasiya maddələri üzrə qruplaşdırılması

**--blok--**

25. Pul vəsaitlərinin və hesablaşma əməliyyatlarının mahiyyəti
26. Kassa əməliyyatlarının sənədləşdirilməsi və uçotu
27. Bank hesablaşma hesabları üzrə əməliyyatların uçotu
28. Xarici valyuta əməliyyatlarının uçotu
29. Pul vəsaitləri və hesablaşma əməliyyatlarının inventarlaşdırılması
30. Əməyin uçotunun təşkili prinsipləri və formaları
31. Əmək haqqının sintetik və analitik uçotu

**--blok--**

32. Nizamnamə kapitalının yaranması və dəyişilməsinin uçotu
33. Əlavə kapitalın yaranması və uçotu
34. Ehtiyat kapitalının uçotu
35. Mənfəət və zərərlərin uçotu
36. Maliyyə hesabatı qarşısında qoyulan tələblər
37. Maliyyə hesabatının tərtib olunması və təqdim edilməsi qaydası

Sillabus "Maliyyə idarəetməsi və audit" kafedrasında 26.12.2025-ci il tarixində (07 saylı iclas protokolu) müzakirə edilərək təsdiq olunmuşdur

Kafedra müdiri: dos. Əlixan Bədəlov

Fənn müəllimi: b/m. Səriyyə Tağızadə

Dekan ... dos ...

CamScanner ile tarandı